

# HACI İSMAYILOV - SƏNƏT YANĞISI SÖNMƏYƏN İNSAN...

## ("Sənət fədailəri" silsiləsindən)

**Vaqif YUSİFLİ,**
**filologiya elmləri doktoru**

**Neçə illərdir ki, Xalq artisti Hacı İsmayılovu səhnədə və televiziyada izləyirəm, onün böyük məharətlə oynadığı rollara tamaşa edirəm. Bu xoş təbəssümlü, oynadığı rollarda da insanlara sevinc bəxş eləyən aktyor haqqında müxtəlif vaxtlarda iki yazı da yazmışam. Amma o yazılardan sonra Hacının sənət uğurları bitib-tükənməyib. Bir dəfə Akademik teatrda, hansı tamaşadan sonrasa ulu öndərimiz Heydər Əliyev aktyorlarla görüşdü. Üzünü Hacı İsmayılova tutub dedi ki, sən heç qocalmırsan, necə vardın, eləcə qalmısan. Doğrudan da, Hacı İsmayılov qocalmır. Olsun ki, yaşa dolur, nə az, nə çox-72 yaşı var-amma cavanlığındakı o sənət yanğısı, teatra və kinoya məhəbbəti, böyük şövqlə oynadığı rollar onu qocalmağa qoymur.**

Mən teatrşünas deyiləm, amma bir tamaşaçı və söz adamı kimi "Hacı İsmayılov necə aktyordur?" sualını versələr, heç fikirləşmədən, baş sındırmadan deyərəm ki, Hacı İsmayılov bənzərsiz sənətkardır. Onsuz nə teatrımızı, nə də kinomuzu təsəvvür eləmək mümkün deyil. Hacısız teatr və kinoda bir boşluq və çat yaranardı. Amma bu zirvəyə yüksələnəcən, Hacı İsmayılov neçə sınaqlardan, sənət imtahanlarından keçib.

Orta məktəbi bitirəndə tərəddüd etmədən sənədlərini İncəsənət İnstitutuna verdi. Yaxşı xatırlayır ki, oxuduğu məktəbdə Novruz Gəncəlinin "Gənc ustalar" pyesini tamaşaya hazırlayırdılar. Ona da bu əsərdə tənbəl Mahmud rolunu tapşırdılar. Səhnəyə ilk gəlişində özünü itirdi, çaşdı, amma sonra özünü ələ aldı. Bir dəfə ədəbiyyat müəllimi (o zaman çox məşhur idi bu müəllim) Zərbəli Səmədov ona yaxınlaşdı: "Oğlum, mən səni gələcəkdə aktyor görmək istərdim. Səndə bu sənətə məhəbbət görürəm. Hiss edirəm ki, başqa uşaqlar kimi sözləri əzbərləyib səhnəyə çıxmırsan, çox təbii oynayırsan". Zərbəli müəllimin bu sözləri onu qanadlandırdı. Az sonra Hacı Lütfü Məmmədbəyovun rəhbəri olduğu xalq teatrına cəlb olundu. İlk sənət müəllimi kimi ondan çox şey öyrəndi. Hacının sənət yolu Sumqayıt teatrından başladı. İlk rolu "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasında Dərviş Məstəli şah oldu. 1970-ci ildən o, Akademik teatra dəvət olundu.

Mən dəfələrlə Baş teatrımızın səhnəsində Hacının oynadığı rollara tamaşa etmişəm. Bu rolların sayı-hesabı yoxdur, amma ən xoşladığım rollardan söz açmaq istəyirəm. Onu deyim ki, Hacı İsmayılov bu teatrın səhnəsində çox nadir hallarda baş rolda oynayıb, əksərən ikinci dərəcəli rolları ifa edib. Amma hər bir rola olduqca məsuliyyətlə yanaşıb. İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı" tamaşasında Dördüncü qaçaq, Nazim Hikmətin "Şöhrət və ya unudulan adam" pyesində Kişi, Səməd Vurğunun "İnsan" dramında Alman zabiti-bunlar aparıcı rollar olmasa da, Hacının ifasında uğurlu alınmışdı. Cəlil Məmmədquluzadənin "Dəli yığıncağı"ndakı Hacı Cəfər rolunu da indiyə kimi xatırlayıram. Obrazın daxili dünyasını, fərdi keyfiyyətlərini açıqlamaq baxımından Barataşvilini ("Mirzə Şəfi"-Nəbi Xəzri), Yaralı zabiti ("İblis"-Hüseyn Cavid), Sönməzi ("Od gəlini"-Cəfər Cabbarlı) Ruhanini ( ("Biganələr oteli"-Rüstəm İbrahimbəyov), İmanovu ("Yayla qartopu oyunu"-Vaqif Səmədoğlu) - bu müxtəlif temperamentli rolları Hacı ustalıqla oynayırdı. Xeyrəddin Qocanın "Hərənin öz payı" pyesində Mirzə Ələkbər Sabir obrazına isə söz ola bilməzdi. Anarın "Sizi deyim gəlmişəm" pyesində baş rolu-Məmmədhəsən əmini oynadı və doğrudan da bu rol Hacının bir aktyor kimi potensial imkanlarını aşkara çıxardı.

Hacı İsmayılov həm müsbət, həm də mənfi rollar oynayıb. Amma müsbət rolları daha yaxşı ifa edib - xüsusilə xeyirxah, nəcib, işıqlı insanların obrazlarını məharətlə yaradıb.

Hacı İsamyılovun Azərbaycan kinosunun son 30-40 ildə keçdiyi yolda izləri aydın görünür. Bu barədə deyir:

"Heç güman eləməzdim kinoya çəkiləm. Bu nagümanlıq da deyildi, çünki hər aktyorun kinoda çəkilmək arzusu var. Amma bu arzuya hərə bir cür çatır. Kimisi kinoya epizodik rolla gəlir, elə axıra qədər də o rolların ifaçısı kimi "məşhurlaşır", kimisi isə elə birbaşa əsas rolun ifaçısı kimi. Ancaq hər hansı aktyorun kino imkanlarını ilk növbədə rejissor görür, daha doğrusu, kəşf edir.

Nə üçünsə kinostudiyaya getmişdim. Kimi isə axtarırdım. Həm də məşqə tələsirdim - "Azdramaya". Çiynimə bir əl toxundu: "Siz Mustafa deyilsiniz?". Təəccüblə boylandım. Bu sözləri deyən Rasim Ocaqov idi. Bir-birimizi tanıyırdıq. Ancaq Rasim müəllimin mənə belə müraciətindən heç nə anlamadım-

-Rasim müəllim, mən Mustafa deyiləm, Hacıyam, Hacı İsmayılov.

-Yox, sən Mustafasan.

Gülümsündüm.

-Əhsən, Mustafa da bu sayaq gülümsəyə bilər. Sənin kimi.

Nəhayət, Rasim Ocaqov məqsədini bildirdi. Dedi ki, səni "Ad günü" filmində çəkmək istəyirəm. Sevindim. Dedim ki, fikirləşmək və ssenari ilə tanış olmaq üçün mənə vaxt verin. Ssenari ilə tanış olandan sonra özümdə elə rahatlıq hiss elədim ki... Mustafa lap boyuma, aktyor xarakterimə, lap elə mənim xarakterimə biçilmişdi".

Mustafa kimdir? Bu tipli obrazlara 60-70-ci illərin nəsrində tez-tez təsadüf etmişik. Həyatdan gələn obrazlardan biri idi Mustafa. Ömrü boyu təmiz yaşayan, bir kimsənin xətrinə dəyməyən, namuslu bir insan. Bu adam ictimai həyatda öz fərdi keyfiyyətləri və fəallığı ilə seçilə, fərqlənə bilər, hardasa uğur qazanar. Amma şəxsi həyatda, intim məsələlərdə, sevgi aləmində nə üçünsə utanar, sıxılar. Bununla belə, təmizlik nuru, insanlara böyük inam, təmənnasız səmimiyyət onları tərk etməz. Başqaları üçün bəzən çox asan və həll edilməsi müşgül olmayan bir məsələ Mustafa üçün az qala bir problemə çevrilir. O rolu Hacı məhz bu səpgidə hazırladı və "Ad günü" uğur qazandı. 1980-ci ildə Hacı İsmayılov bu filmdəki rola görə Respublika Dövlət Mükafatı laureatı oldu.

"Ad günü" 1978-ci ildə ekranlara çıxdı. O, bu filmin ona bəxş etdiyi sevinclə illər boyu qürur duydu. Ondan sonra neçə filmə çəkildi. "Bağlı qapı arxasında" Alik, "Dantenin yubileyi"ndə Əlikram, "Yol hadisəsi"ndə Mürşid, "Ölsəm, bağışla"da Tağı, "Yaramaz"da Hacı, "Özgə həyat"da Qasımov, "Həm ticarət, həm ziyarət"də Mustafa müəllim, "Sarı gəlin"də Qədir - bu ardıcıllıq indi də davam edə bilər, əgər rejissorlar Rasim Ocaqov kimi uzaqgörən olsalar.

Hacı İsmayılov televiziya tamaşalarında da uğurlu obrazlar yaradıb. Mənim ən çox xatırladığım bir obraz var-Vaqif Səmədoğlunun "Yaşıl eynəkli adam" üç seriyalı televiziya tamaşasında Qafar. Qohum-əqrəbanı bir yerə yığıb onları birliyə çağıra, öz kökünü unutdurmağa qoymayan Qafar sonda istəyinə nail olur. Üzeyir Hacıbəylinin felyetonları əsasında hazırlanan "Ordan-burdan" tamaşasında Qoçu Gülbala da Hacı İsmayılovun maraqlı obrazlarından biridir.

Hacı öz sənətini sevir və bu sevgi dərin bir məsuliyyət hissi ilə aşılanıb. Deyir: "Elə vaxtımdır ki, mənim istər sənətdə, istərsə həyatda səhv etməyə iztiyarım yoxdur. Mənim üçün tamaşaçı marağı və onun verdiyi qiymət hər şeydən yüksəkdir. Onun alqışları, verdiyi çiçək dəstələri dünyanın ən böyük mükafatıdır mənim üçün. Qabaq elə bilirdim ki, mən hamını tanıyıram, amma səhv fikir idi bu, mən indi-indi insanları daha yaxşı tanımağa başlamışam. Həyata hisslərim, duyğularım yox, ağlın gözüylə baxanda bu qənaətə gəlirəm.

Son illərdə teatrda rollarım azalıb. Bu da mənim Azərbaycan Teatr Xadimləri Cəmiyyətində sədr müavini işləməyimlə bağlıdır".

Hacı İsmayılov onun sənət taleyində mühüm rol oynamış Rasim Ocaqovdan böyük məhəbbətlə danışır. Deyir ki, Rasim müəllim məndə bir kino tərbiyəsi, nizam-intizamı yaradıb. İstər "Azdrama"da, istərsə də kinostudiyada istedadlı rejissorlar az deyil. Onların hər biri müəyyən üsluba malik rejissorlardır. Amma Hacı mənim fikrimcə, teatrda öz rejissorunu-öz Rasim Ocaqovunu hələ tapa bilməyib.

"Həm ziyarət, həm ticarət", ondan əvvəl "Ad günü" filmlərində Hacının ifa etdiyi Mustafa müəllim Şəki ləhcəsində danışır. Çoxları elə güman edirdi ki, Hacı İsmayılov şəkilidir, çünki onun danışığı eynən Şəki ləhcəsində idi. Amma Hacı bakılıdır, Şəki ləhcəsində danışmağı isə onun bir aktyor kimi uğuru sayıla bilər, öyrənmək həmişə zəhmət tələb edir.

Hacı deyir ki: "Mən Hacı kimi Mustafadan tamam seçilirəm. Mustafa nəqədər mülayim, həssas, təmiz, kövrək bir insandırsa, bəlkə mən bir az onun əksiyəm, sərtliyim də var, ciddiliyim də, yəni bir çox xasiyyətlərim var ki, Mustafa elə deyil. Amma o, mənim üçün ideal bir insandır. Kaş çoxları Mustafaya bənzəyəydi.

Bəli, əziz oxucular, mən sizə sevdiyiniz (buna qəti şübhəm yoxdur!) bir sənətkardan - Xalq artisti Hacı İsmayılovdan söz açdım. Hamınızın adından ona uğurlar diləyirəm!